# Qazax bölgəsində Novruz adət-ənənələri



Türk dünyasının ən əziz bayramlarından biri də zaman-zaman müəyyən dəyişikliklərə uğrayan, bəzi adətləri unudulub, bəzi adətlərini isə yeniləyən Novruz bayramıdır. İnanca görə, insan, kainat 4 ünsürdən - su, od, torpaq və küləkdən yaranıb. Aşıqlarımız da vücudnamələrində «Ab, ataş, xak, baddan yarandım» deyərək - su, od, torpaq və yelə bağlı olduqlarını nəzərdə tutublar. Molla Cümə:

**...Abı, ataş, xaki, baddan**
**xalq etdi,**
**İlahi Adəmi yaratdı ata,**
**bu məxluqata.**

- zincirləməsində oddan, sudan, torpaqdan və yeldən yarandığını söyləyir.

Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20-si, 21-i və ya 22-də) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayıb, bu münasibətlə şənliklər keçirib, onu yeni ilin başlanğıcı kimi bayram ediblər. Qədim zamanlardan başlayaraq Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda və bir çox şərq ölkələrində baharın- yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. 2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilib.

Şərq xalqlarında olduğu kimi, azərbaycanlıların da mövsüm mərasimləri içərisində Novruz bayramı özünəməxsusluğunu hələ də qoruyub saxlamaqdadır. Azərbaycanın bütün bölgələrində Novruz bayramı böyük sevinclə qarşılanıb. Folklor örnəklərini özündə daha çox ehtiva edən Qazax mahalında Novruz bayramı özünəməxsus əhval-ruhiyyədə keçirilir. Novruz adətləri Qazaxda ta qədimlərdən yüksək dəyərləndirilərək keçirilib. Səməd Vurğunun böyük qardaşı Mehdixan Vəkilov şair haqqındakı xatirələr kitabında 1906-cı ilin 21 mart gecəsini təsvir edərək yazır: "1906-cı ilin 21 mart gecəsi idi. Novruz bayramı gəlmişdi. Salahlı kəndinin daş evlərindən gur lampa işığı gəlirdi. Həyətlərdə tonqal yanırdı. Uşaqlar, yeniyetmələr, hətta yaşlılar da od üzərindən hoppanır, köhnə təsəvvürlərə görə, azar-bezarlarını və xata-balalarını atəşə tökürdülər. Bütün kənddə şadlıq əhvali-ruhiyyəsi var idi. Fişənglər atılır, lopalar alovlanırdı. Qızlar, gəlinlər öz baxtlarını qabaqcadan bilmək ümidiylə suya üzük salır və bayatılar deyirdilər. İtlərin səsi aləmi götürmüşdü. Keçəpapaq (kosa) adlanan məzhəkəçilər qapı-qapı gəzib adamları güldürür, bayram payı alırdılar."

Molla Pənah Vaqif bayramı evlərində dolu çuval olmadığını, düyünün, yağın tükəndiyini, ətin ələ düşmədiyini, hətta xalqın noğula, qəndə batmalarına rəğmən onların evlərində axta zoğalın belə olmadığını təsvir etdiyi halda M.V.Vidadinin yaradıcılığında "Novruz bahar olur, cahan təzətər olur", Səməd Vurğun yaradıcılığında da Novruz bayramı "gəlinlərin fəsəli yayması", bayram əhval-ruhiyyəsi, Qazağın qədim, yaddaqalan adət-ənənələrindən biri kimi təsvir olunur.

Adət-ənənəni xalq yaradır və özü də inkişaf etdirir. Novruz adət-ənənələrini də xalqdan öyrənmək lazımdır. Novruz bayramı ilə əlaqədar yetərincə alimlər şərhlər yazıb, araşdırmalar aparıb, müxtəlif qənaətlərə gəliblər. Ona görə də bu şərhlərə bayramın həqiqi mahiyyətini əks etdirən arqumental mülahizələr kimi deyil, bayramla bağlı əski mifoloji görüşləri özündə daşıyan dəyərli informasiya mənbəyi kimi baxmaq daha düzgün və dəqiq yanaşma olar. Adətlər həm ötürücü, həm də qəbuledicidir. Bəzən bölgələr və ya dövlətlər bir-birindən adətləri mənimsəyə bilir, yaxud ötürə bilir.

Novruz bayramı Bakıda qurban və oruclu bayramlarından dəfələrlə artıq bir təntənə ilə keçirilərdi. Novruzu bir ay əvvəldən qarşılamaq Bakıda bir adət idi. Həftənin hər çərşənbə axşamı hər evin həyətində yaxud darvazasında tonqal qalanardı, bu tonqala arvadlar üzərlik töküb bu sözləri oxuyardılar:

**Üzərliksən havasan,**
**Cəmi dərdə davasan.**
**Hər yerdə sən yanasan**
**Qada, bala aparasan.**

Elm zaman-zaman xalqdan adətləri toplayıb kitablara köçürür. Heç bir tarixi hadisə, yaxud şəxsiyyətin adı, onun fəaliyyəti ilə bağlı olmayan Novruz təbiətin, kainatın qanunları ilə idarə olunan bir bayram olub.

Hər il 4 çərşənbə Novruzdan, günün bərabərləşməsindən əvvəl qeyd olunur. Dörd çərşənbə ilə qeyd olunan bayram su, od, torpaq və yel-ilaxır çərşənbədir. Çərşənbələrin hesablanması keçmişdə təqvimə görə mart ayının 21-dən geriyə dörd çərşənbə hesablanaraq müəyyənləşirmiş. Qazax bölgəsində çərşənbələrin adlarında bir az fərqli deyimlərlə qarşılaşırıq. Belə ki, **su çərşənbəsi olan** çərşənbə el arasında su çərşənbəsi kimi bilinsə də cıvrıxçı, cıdırçı, yaxud xəbərçi (Qazax bölgəsində xəbərçi ifadəsi ən çox dialekt söz olan "cıvrıxçı" kəlməsi ilə işlədilir) çərşənbəsi adlanır. Həmin çərşənbədə mütləq evə dan üzü su gətirilir, həmin su ilə aş dəmlənir, çay qoyulur. Evlərdə o su ilə xəmir yoğurular, çörək bişirilər. Bunlar inaca görə həmin ilin ruzulu -bərəkətli olması deməkdir.

Nahide Şimşek "Anadolu və qazax türklərində bayramlar" adlı məqaləsində araşdırma zamanı belə nəticəyə gəlir: Bayramdan önceki gece yılın bol ve bereketli olması için bütün kap ve tabaklar su, süt, ayran, kımız, buğday və.s ilə doldurulur.

İlk çərşənbə, yəni "cıvrıxçı çərşənbəsi" adı ilə ona görə səslənir ki, artıq yazın gəlişini xəbər verir. "Cıvrıxçı" da elə "xəbərçi" deməkdir. Bu ad adıçəkilən bölgənin kəndlərində müxtəlif cür işlənir. Məsələn, Xanlıqlar kəndində "cıdırçı" deyilir. Birinci çərşənbəni, yəni su və ya çıvrıxçı çərşənbəni Qazax bölgəsində xüsusi qeyd edirlər. İnanclara görə, ilk çərşənbəni necə keçirərsən, həmin il axıra qədər ruzulu-bərəkətli olarsan. İlk çərşənbədə ocaq yandırılır, uşaqlar üçün lopa düzəldilir.

Lopa çox qədimdən digər bölgələrdə olduğu kimi Qazaxda da istifadə olunur. Bunu həm Novruz bayramında, həm də keçmişdə toy mərasimində "şax qaldırma" (şah bəzəmə, toyda qardaşlıq ya bacılıq tərəf toyu olana bəyə və gəlinə qaldırılar) lopa yandırırlar. Lopa uzun bir çubuğa köhnə paltar-palazdan dolanır və simlə bərkidilir, sonra onu bir-iki saat neftin içində saxlayırlar, gecə şər qarışanda yandırılır. Adətən evdəki uşaqların sayına uyğun hərəsinin adına bir lopa düzəldilərdi. Təəssüf ki, hazırda bu adət unudulmaqdadır.

Artıq ilk çərşənbədən səmənilər göyərdilir. Bu bölgədə səməni mütləq torpaqda göyərdilər ki, bunun da rəmzi mənası torpağın ruzulu-bərəkətli olması ilə bağlıdır. Bu mərasimin aparıcı elementləri, mütləq atributu-səməni göyərdilməsi də qadınların novruzqabağı hazırlıqlarına daxildir. Göyərdilən səmənilər niyyət edilib qoyular. Əgər səməni yaxşı göyərərsə, demək niyyətin yerinə yetməsi deməkdir.

"Çox maraqlıdır ki, insanlar təzə ilə tamamilə təzə daxil olmaq istəyirlər. Məsələn, evdə hər şey təmizlənir, ev ağardılır, paltar yuyulur, yorğan-döşək havaya çıxardılır və sairə." Hər iki müəllifin təbirincə desək, Qazax bölgəsində də çərşənbə öncəsi eyvan, eşik mütləq təmizlənir, bayrama hazırlıq görülür. Məhz bu mənada su çərşənbəsi təmizlik çərşənbəsidir - deyə eveşiyi təmizlər, paklardılar. Novruza iki həftə, on gün qalmış hər kəs öz halına görə hazırlıq görərdi. Qapı-bacanı əhənglə ağartmaq, evlərin bayır-bacasını süpürmək, palaz xalçanı çırpıb təmizləmək, evi-otağı səliqəyə salmaq, yeni ili bir təmizlik içərisində qarşılamaq ümumi bir həvəs idi.

Novruzda təmizlik işləri aparmaq türk dünyasında türk xalqlarının hamısında mövcuddur. Fərqli xüsusiyyətlər olsa da, məqsədlər eynilik təşkil edir. Çərşənbə gecələri xonça düzəltmək, şam yandırmaqla yanaşı bir çox adətlər də bu sarıdan hazırda da yaşamaqdadır. Keçmişdə bayramda ən yaddа qalan və illərdi davam etdirilən "alışma" məsələsidir. Alışma istənilən vaxtlarda olsa da Novruz bayramında məxsusluğu ilə seçilərdi. Kənd camaatı yığılaraq beş-on nəfərə, bəzən ondan da çox iri buynuzlu heyvan alaraq çərşənbələrdə sübh tezdən kəsərək qiymətini bərabər bölərək putluq verdələrdə bölərdilər. Adları yazıb püşkatma ilə hər bölünmüş ətin üzərinə qoyaraq onunla da müəyyən edərdilər ki, hansı ət kimindir.

İkinci çərşənbə **od çərşənbəsidir**. Bu çərşənbəni də Qazax bölgəsində təmtəraqla keçirirlər. Aş dəmləyər, süfrə açar, şəkərbura, paxlava bişirirlər. XX əsrin əvvəllərinə kimi bayramda şəkərbura paxlava deyil, sacın altında közdə kömbə, qatlama, əydəy, fəsəli bişirilərdi. Üç gün kəndin başında zurna çalınardı. Hər il novruzda kəndə məxsusi kəndirbazlar gələrdi. Qazax bölgəsində məxsusi olaraq aşı əriştə ilə bişirərlər. İlk çərşənbədən qabaq çərşənbələr öncəsi qadınlar bayram əriştəsi kəsərlər. Çərşənbələrdə və bayramda aşı mütləq əriştə ilə dəmləyərlər. Bu adət hələ də davam etməkdədir. Bu çərşənbədə də ocaq qalanar, lopa düzəldilər.

**Üçüncü - torpaq çərşənbəsinə** Qazaxda el arasında həm də ölü çərşənbəsi, qara bayram deyilir. Bu çərşənbədə ocaq qalamazlar. Hər kəs dünyasını dəyişən ailə üzvlərinin və qohum- əqrəbanın qəbir üstünə çıxar; qəbir üstünə səməni aparar, bayram xonçası qoyarlar. Evdə dəmlənən aşı da ölü adına dəmləyərlər. Azad Nəbiyev müsahibələrinin birində deyir ki: «Son vaxtlarda Novruzun ritualları, adət-ənənələrinə bir qədər neqativ münasibətlər özünü göstərir. Yəni bəzi məlumatsız adamlar tonqal mərasimini, papaqatdını, kosa-keçəl personajını yanlış şərh edirlər. Bundan əlavə «qara bayram» və «yalançı çərşənbə» adətləri var ki, bunlar da sonradan yaranıb və adət halını alıb. Amma Novruz bayramdır və xalq heç vaxt yas mərasimini bayram etməyib». Cəlal Bəydili isə ölü çərşənbəsinin dördüncü çərşənbədə qeyd edildiyini yazır: Axır çərşənbə gününün bir başlıca özəlliyi də budur ki, qəbir üstünə gedilər, ölülərin ruhuna Quran oxunar, dua elənər. Bu çərşənbə axşamı da, dədə-baba adətincə, adamlar od yandırıb ocaq çatar, tonqal qalayıb üstündən tullanallar.

Qazax bölgəsində dördüncü deyil, üçüncü çərşənbəni "ölü çərşənbəsi" adlandırır və bu çərşənbəni yuxarıda deyilən şərtdə qeyd edir. Azad Nəbiyevin dili ilə desək: ölüyə bayram etməzlər, əslində bayram deyil də həmin gün ölülərі yad edirlər. Novruz bayramı adətlərini və oyunlarını özündə daha çox ehtiva edən Hüseynqulu Sarabski "Köhnə Bakı " kitabında: Bayram axşamları arvadlar əlvan xonçalarla qəbbristanlığa da gedərdilər. Qəbristanda hər kəs öz xonçasını ölüsünün qəbri üstünə düzərdi və sonra oxşayıb ağlamağa başlardı.-yazısında qeyd edilən bütün fikirlərimizin təsdiqini tapmış oluruq.

*(Ardı səhifə 14-də)*

İLHAMƏ CƏLALQIZI,
**filologiya üzrə fəlsəfə doktoru**

(əvvəli səh 13-də)

# Qazax bölgəsində Novruz adət-ənənələri

Dördüncü çərşənbə yel çərşənbəsidir ki, bu həm də ilaxır çərşənbədir. Bu çərşənbə artıq tam fərqli bir əhval-ruhiyyədə keçirilir. Həmin gün çox böyük canfəşanlıq olur. Evlərdə bayram xonçaları bəzədilir, hərənin adına bir şam yandırılır. Məhlələrdə tonqallar düzəldilir. Stollar düzülür, üzərinə şirniyyat qoyulur, samovar qaynadılır. Ən əsası isə həmin gün qapı pusma, fala baxma, papaq atma mərasimi olur. Nişanlı qızların qapısına bayram hədiyyəsi gedir. 1989-cu ilin Novruzuna qədər Qazax bölgəsində ilaxır çərşənbəni aşıqlarsız və qara zurnasız təsəvvür etmək olmazdı. Professor Maarifə Hacıyevanın təbirincə desək, Azərbaycanda Novruz ayında (martda) bir qayda olaraq ağac əkilir, həyət-baca səhmana salınır, çeşidli yeməklər, şirniyyatlar bişirmək üçün hazırlıq görülür, aşıqlar ilk baharın-Novruzu mədh edən şeirləri sazın müşayəti ilə oxuyurlar. Şübhəsiz ki, bu vəziyyət ədəbi salnaməyə çeşidli nümunələr bəxş edib. Bəlkə elə bu səbəbdəndir ki, Novruz həm də yaz bayramı, saz bayramı kimi təəssürat oyadır. Novruz bayramını sazsız təsəvvür etmək olmur. Aşıqlar və zurnaçılar başlarında bir neçə dəstə maskalı gənclərlə qapı-qapı gəzər, bayramlaşardılar. Bir kənddə bir neçə belə dəstə yaranardı. Hər qapıya gedərdilər və "baja-baja payı" (baca) yığardılar. İsmayıl Şıxlı "Dəli Kür " əsərində bu səhnəni daha real şəkildə əks etdirib. Novruz adətləri, bayram əhval-ruhiyyəsi qazax camaatının keçmişdə necə yaşamalarından xəbər verir Həmin gün həm də "Dan atma" mərasimi də keçirilir. Bu mərasim niyyət gecəsini reallaşdırır. Kim niyyət edib deyirsə ki, niyyətim yerinə yetsin, Novruzda dan atacam, məhz onlar keçirirlər.

"Dan atma" gecəsi ən çox ilaxır çərşənbə keçirilsə də, bəzən bunu Novruz bayramı gecəsi, yəni ayın 21-də də keçirənlər olur. "Dan atma" gecəsində keçmişdə, yəni təxminən 1985-88-ci illərə qədər mütləq aşıqlar iştirak edərdilər. Onlar səhərə qədər çalıb-oxuyar, dastan danışardılar. Bu həm də dan gecəsinə yığışanların yatmaması, dan suyu gətirilənə qədər yuxusuz qalmaları məqsədini daşıyır. Həmin dan atma gecəsində heç kim yatmamalı, saqqız çeynənilməməli, tum yeyilməməlidir. Yatan şəxs digərləri tərəfindən yatdığı yerdə "iynə ilə tikilirdi". Səhərə qədər insanlar yeyib-içir, deyib-gülür, aşıqların dastanlarına və ifalarına qulaq asırdılar. Yaşlı qadınlar gəlmişdən-getmişdən söhbətlər açarmışlar. Hətta gecə boyunca gənc qızlar fala baxar, qulaq falına çıxarlar. Səhər dan yeri söküləndə iştirakçılar kollektiv şəkildə axar sudan su gətirməyə gedirlər. Su başında da aşıqlar çalıb-oxuyar, qara zurnanın səsi kəndə yayılardı. Hər kəs dan suyundan içib evə də su gətirərdilər. Bu suyu evə gətirənə qədər niyyət edənlər danışmazlar. Səhər açılanda, yəni dan suyunu gətirəndən sonra hərə öz evinə dağılar. Bu adət bir az yenilənib dəyişsə də, yaşanmaqdadır. İlaxır çərşənbəni evində qarşılayanlar da bayram adət-ənənələrini yaşadırlar. Gənclər "baja-baja" yığmaq üçün evlərə gedər, getdikləri evdən isə onlara torbalarına və ya papaqlarına bayram payı, yəni evdə bişiriləndən qoyardılar. Odur ki, Novruz bayramı axşamında evlərdə könül açan, ümid verən söhbətlər danışılmalıdır. Novruz bayramında ən çox yayılmış adətlərdən biri də qurşaq salmaqdır. Daha çox uşaqlar, cavanlar qaranlıq düşəndə evbəev gəzib bacadan, pəncərədən qurşaq sallayıb bayrampayı alırlar. Onların qurşaqlarına qovurqa, boyanmış yumurta, qoz fındıq, cürbəcür şirniyyatlar bağlayırlar.

Bir neçə kənddə isə ilaxır çərşənbə fərqli keçirilir. Orta Salahlı və Qıraq Salahlı kəndlərində daha fərqli, maskalarla qapı-qapı gəzər, gəzdikləri evdən bayram payı ilə yanaşı hətta pul da alırlar. Onlar da qara zurna və sazla keçirirlər bu bayramı. Seyfəddin Rzasoy yazır ki, Novruz bayramı öz tarixi-mədəni kökləri etibarilə onu dünən və bu gün qeyd edən xalqların bayramı olmaqla yanaşı, həm də öz teokosmik-ümumbəşəri mahiyyəti baxımından bütün dünyada insanlığın yenilənmə və sülh bayramıdır. Adətə görə, bir neçə gündən sonra səmənini torpağa basdırarlar ki, torpaq bərəkətli olsun.

İLHAMƏ CƏLALQIZI,
**filologiya üzrə fəlsəfə doktoru**